# Azərbaycanın xarici işlər naziri Nyu-Yorkda görüşlər keçirib



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 70-ci sessiyasında iştirakı çərçivəsində sentyabrın 24-də BMT-nin Terrorçuluqla Mübarizə Komitəsinin İcraedici Direktorluğunun icraçı direktoru Jan-Pol Laborde ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Jan-Pol Laborde Suriya və İraqa vuruşmaq üçün gedən çoxlu sayda xarici döyüşçülərin təhlükəsizlik üçün təhdid olduğunu qeyd edib. Azərbaycan Respublikasının terrorçuluqdan əziyyət çəkən bir ölkə olduğunu vurğulayan icraçı direktor terrorçuluqla mübarizə sahəsində ölkəmizin gördüyü işləri yüksək qiymətləndirib. Bu sahədə ölkəmizlə yaxın əməkdaşlığın vacibliyini bildirib və bu məqsədlə Azərbaycana səfər etmək niyyətini diqqətə çatdırıb.

Elmar Məmmədyarov Azərbaycanın bu sahədə əməkdaşlıq etməyə hazır olduğunu və icraedici direktorun Azərbaycana səfər etmək niyyətinin alqışlandığını bildirib. Avropa ölkələri ilə müqayisədə Azərbaycandan İraq və Suriya kimi ölkələrə döyüşməyə gedənlərin az sayda olduğunu qeyd edən nazir bu təhdidin qarşısını almaq üçün həyata keçirilən tədbirlər barədə məlumat verib. O, məsələnin həlli üçün dövlətlər arasında məlumat mübadiləsinin vacib olduğunu xatırladıb. Nazir İraq və Suriya kimi ölkələrdə siyasi vəziyyətin həllinə nail olmadan xarici döyüşçülərlə bağlı problemin aradan qaldırılmasının qeyri-mümkün olduğunu vurğulayıb.

Jan-Pol Laborde BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 2170, 2178 və 2199 saylı qətnamələrin problemin həllinə vacib əsas olduğunu və onların həyata keçirilməsi üçün vasitələrin tapılmasının atılacaq addımlar sırasında durduğunu qeyd edib.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 25-də BMT Baş Məclisinin 67-ci sessiyasının prezidenti, Serbiyanın sabiq xarici işlər naziri, Beynəlxalq münasibətlər və davamlı inkişaf mərkəzinin prezidenti və "Horizons" jurnalının baş redaktoru Vuk Yeremiç ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə qarşılıqlı maraq kəsb edən regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 70-ci sessiyasında iştirakı çərçivəsində sentyabrın 26-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasında iştirak edib.

İclasda regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, üzv dövlətlərin namizədliklərinin qarşılıqlı dəstəklənməsi, təhlükəsizlik, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 25-də BMT Baş Məclisinin 70-ci sessiyası çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrləri (Amerika Birləşmiş Ştatlarından Ceyms Uorlik, Rusiya Federasiyasından İqor Popov, Fransadan Pier Andryu) ilə görüşüb. Görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edib.

Görüş əsnasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində müzakirələr davam etdirilib.

* * *

Sentyabrın 27-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 70-ci sessiyası çərçivəsində əfqanıstanlı həmkarı Səlahəddin Rəbbani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu qeyd ediblər. Azərbaycanın ikitərəfli və çoxtərəfli əsasda Əfqanıstana göstərdiyi dəstək yüksək qiymətləndirilib və iki ölkə arasında nəqliyyat, enerji, təhsil və digər sahələrdə əməkdaşlıq üçün əlverişli imkanların olduğu bildirilib.

Azərbaycanın BMT Baş Assambleyasının 70-ci sessiyası çərçivəsində keçirilən Davamlı İnkişaf Məqsədləri üzrə zirvə toplantısının işində fəal iştirakı, Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsində əldə etdiyi nailiyyətlər xüsusi qeyd olunub, ölkəmizin uğurlu siyasi, iqtisadi və sosial inkişaf modelinin Əfqanıstan üçün maraqlı bir nümunə olduğu qeyd edilib.

Elmar Məmmədyarov Azərbaycanın təşəbbüsü ilə regionda həyata keçirilən irimiqyaslı nəqliyyat və enerji layihələri haqqında məlumat verərək, bu layihələrin bütün region boyunca BMT tərəfindən müəyyən edilən davamlı inkişaf hədəflərinə, regional əməkdaşlığa xidmət etdiyini, regionun nəqliyyat və enerji mənzərəsini əsaslı şəkildə dəyişdiyini diqqətə çatdırıb. Bakı-Tbilisi-Qars layihəsinin tezliklə fəaliyyətə başlayacağını qeyd edən nazir bu nəqliyyat infrastrukturunun yük daşımalarının, ticari-iqtisadi əlaqələrin və insanlararası təmasların artmasına xidmət edəcəyini və perspektivdə regional nəqliyyat qovşağı vasitəsilə Əfqanıstanın da onun imkanlarından istifadə edə biləcəyini bildirib.

Səlahəddin Rəbbani ölkəsinin Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan ərazisindən keçəcək (TAPİ) qaz boru kəmərinin təməlqoyma mərasiminin bu ilin sonunda həyata keçirilməsinin nəzərdə tutulduğu və Türkmənistan-Əfqanıstan-Tacikistan dəmir yolu xəttinin tikintisinin davam etdiyi barədə məlumat verib, davamlı regional inkişaf baxımdan nəqliyyat infrastrukturlarının əhəmiyyətini qeyd edib.

Elmar Məmmədyarov bir-birini tamamlayan və regional nəqliyyat qovşağının yaranmasına xidmət edən bu layihələrin həyata keçirilməsi ilə əlaqədar sərhəd tənzimlənməsi, təhlükəsizliyin təminatı, yolların tikintisi və sair bu kimi məsələlərin müzakirəsinin mühüm olduğunu qeyd edərək, bu məqsədlə region dövlətlərinin iştirakı ilə beynəlxalq konfransın keçirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 70-ci sessiyası çərçivəsində Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Herrisin (David Harris) rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Amerika Yəhudi Komitəsinin Azərbaycana səfərlərinin və ölkəmizlə yaxından tanışlığının, beynəlxalq tədbirlər çərçivəsində bu kimi görüşlərin və aparılan fikir mübadilələrinin təqdirəlayiq təcrübə olduğu qeyd edilib.

Azərbaycan haqqında həqiqətləri geniş ictimai dairələrə təqdim etməklə Amerika Yəhudi Komitəsinin Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatları və İsrail ilə ikitərəfli əlaqələrinin inkişafına töhfə verdiyi bildirilib. Devid Herris komitənin bu ilin yazında Azərbaycana məhsuldar səfərini xatırladaraq, gələn il də ölkəmizə belə bir səfərin həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Görüşdə Azərbaycanın zəngin tolerantlıq və multikulturalizm ənənələrinin nümunəvi xarakter daşıdığı vurğulanıb. Elmar Məmmədyarov komitənin nümayəndələrini Azərbaycanda görməkdən məmnun olacağını diqqətə çatdırıb. Həmçinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi və Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqeyi barədə məlumat verib. Bildirilib ki, Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və işğalçılıq siyasəti regional sülh və təhlükəsizlik üçün ən başlıca təhdiddir.

Daha sonra qarşılıqlı maraq doğuran bir sira məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 70-ci sessiyası çərçivəsində Portuqaliyanın xarici işlər naziri Rui Maçete ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə portuqaliyalı nazir iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu qeyd edib. O, xüsusilə turizm sahəsində əməkdaşlıq üçün əlverişli şərait olduğunu diqqətə çatdırıb.

Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyi və eləcə də potensial sərmayə imkanları haqqında məlumat verən nazir Elmar Məmmədyarov uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin qısa müddət ərzində davamlı siyasi, iqtisadi və sosial inkişafa nail olduğunu bildirib. Azərbaycanın Minilliyin İnkişaf Məqsədlərinin qısa müddət ərzində həyata keçirilməsi üzrə təcrübəsinin BMT-nin müvafiq strukturları tərəfindən nümunəvi hal kimi təqdir olunduğunu deyən nazir dünyada özünü büruzə verən iqtisadi-maliyyə problemlərinə baxmayaraq, ölkəmizdə qeyri-neft sektorunun dinamik şəkildə inkişaf etdiyini və bu il yüksək iqtisadi artım tempinin qeydə alındığını vurğulayıb.

Avropa Parlamentinin Azərbaycanla bağlı qətnaməsinin qəbuledilməz və qərəzli olduğunu vurğulayan E.Məmmədyarov bu qurumda təmsil olunan bəzi qüvvələrin məqsədyönlü şəkildə antiazərbaycan və islamofobiya meyilli siyasət yürütdüklərini söyləyib.

Söhbət zamanı miqrasiya və beynəlxalq terrorçu şəbəkələrə qoşulan əcnəbi döyüşçülər məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Portuqaliyalı nazir miqrantların qəbulunun, xüsusilə onların cəmiyyətə inteqrasiya edilməsi, təhsil və səhiyyə kimi əsas ehtiyaclarının təminatının problemli məsələ olduğunu nəzərə çatdırıb.

Elmar Məmmədyarov bu problemlərlə mübarizənin əsas yollarından birinin multikulturalizmin təşviq edilməsi olduğunu qeyd edib və Azərbaycanın bu sahədə mövcud müsbət təcrübəsi barədə məlumat verib.

Görüşdə Elmar Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar haqqında danışaraq Ermənistanın təcavüz və işğala əsaslanan qeyri-konstruktiv siyasəti nəticəsində münaqişənin həllində irəliləyişin olmadığını diqqətə çatdırıb. Ermənistanın təcavüzkar və ilhaqçı siyasətinin bütün regionu yeni fəlakətlər astanasında qoyduğunu deyən nazir əlavə edib ki, münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinin tələblərinə uyğun olaraq Ermənistan qoşunları işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalı, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi təmin edilməlidir.

* * *

Xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 70-ci sessiyası çərçivəsində San-Marinonun xarici işlər naziri Paskal Valentini, Uruqvayın xarici işlər naziri Rodolfo Nin Novoa və Albaniyanın xarici işlər naziri Ditmir Buşati ilə görüşüb.

San-Marino xarici işlər naziri ilə görüşdə iki ölkə arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq imkanlarına dair müzakirələr aparıldı. Görüşdə Azərbaycan Respublikası və San-Marino arasında "Sərmayələrin təşviqi və qarşılıqlı qorunması" haqqında saziş imzalandı.

Uruqvayın xarici işlər naziri Rodolfo Nin Novoa ilə görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq istiqamətləri nəzərdən keçirildi. İki ölkə arasında siyasi dialoqun inkişafında Uruqvay xarici işlər nazirinin müavini Xose Luis Kanselanın bu ilin sentyabrında Azərbaycana məhsuldar səfəri və xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələrin aparılmasının əhəmiyyəti qeyd edildi. Rodolfo Nin Novoa ölkəsinin 2016-2017-ci illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizəd olduğunu qeyd edərək, Azərbaycanın BMT TŞ-də 2012-2013-cü illərdə qeyri-daimi üzvlüyü zamanı əldə etdiyi təcrübəsinin Uraqvay ilə bölüşməsindən məmnunluq duyacaqlarını bildirdi.

Nazir Elmar Məmmədyarov Azərbaycanın xarici siyasətində Latın Amerikası ölkələri ilə əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini qeyd edərək, Azərbaycan və Uruqvay arasında əməkdaşlığın inkişafı üçün xüsusilə enerji və kənd təsərrüfatı sahələrində əlverişli imkanların olduğunu diqqətə çatdırdı. Uruqvaylı həmkarını Azərbaycana səfərə dəvət edən nazir bunun ölkələrimiz arasında gələcək əməkdaşlıq üçün yaxşı imkan ola biləcəyini bildirdi. Uruqvaylı nazir dəvəti məmnuniyyətlə qəbul etdi. Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olundu.

Albaniyanın xarici işlər naziri Ditmir Buşati ilə görüşdə də iki ölkə arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunaraq, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq məsələləri müzakirə edildi. Albaniyalı nazir ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcudluğunu qeyd edərək, xüsusilə enerji sahəsində strateji əməkdaşlıq üçün əlverişli şəraitin olduğunu bildirdi. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 27-də Nyu-Yorkda Niderland Krallığının xarici işlər naziri Bert Koenders ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Elmar Məmmədyarov Avropa Parlamentinin Azərbaycan haqqında qəbul etdiyi qətnamənin qərəzli və qəbuledilməz olduğunu, antiazərbaycan və islamofobiya meyilli xarakter daşıdığını, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrə ciddi zərbə vurduğunu diqqətə çatdırıb.

Bert Koenders 2016-cı ilin birinci yarısından etibarən ölkəsinin Avropa İttifaqına sədrlik edəcəyini bildirib, Niderlandın Azərbaycan ilə əlaqələrin, xüsusilə enerji sahəsində əməkdaşlığın inkişafında maraqlı olduğunu vurğulayıb.

Elmar Məmmədyarov güc tətbiq edərək dövlətlərin sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu deyib, Ermənistanın Azərbaycana qarşı təcavüzü, danışıqlar prosesində rəsmi Yerevanın qeyri-konstruktiv mövqeyi, işğal və təcavüzə əsaslanan status-kvonu davam etdirmək siyasəti barədə məlumat verib. O, münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinə uyğun olaraq Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı olduğunu vurğulayıb.

Görüşdə miqrasiya, radikalizm və ksenofobiya meyilləri kimi məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri artan islamofobiya və ksenofobiya meyillərinin ciddi narahatlıq doğurduğunu diqqətə çatdırıb.

O, Azərbaycanın zəngin və nümunəvi multikulturalizm ənənələri haqqında məlumat verərək ölkəmizin təcrübəsində bu konsepsiyanın uğurlu model kimi özünü təsbit etdiyini bildirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional və qlobal məsələlər ətrafında müzakirələr aparılıb.

**AZƏRTAC**